# Gözünü aç, Qarabağ, yuxu deyil gördüyün

**Darıxmışdı yurd yeri çəkmənin izlərinə,
Həsrət çəkən, yol çəkən sevdalı gözlərinə...
"Vətən sağ olsun" deyən dilinə darıxmışdı,
Torpağa sığal çəkən əlinə darıxmışdı...**

**Səbri daş əritsə də dözmüşdü sona kimi...
30 il yol gözləyən taqətsiz ana kimi
Diz çöküb ayağını qucmağa darıxmışdı,
Sevincdən qanad açıb uçmağa darıxmışdı...**

**Darıxmışdı ağaclar, darıxmışdı çiçəklər,
Bayrağını öpməyə təşnə idi küləklər...
Murovun zirvəsinə yağan qar darıxmışdı,
Minarələr, Türbələr, Məzarlar darıxmışdı...**

**Gözünü aç, Qarabağ, yuxu deyil gördüyün,
30 illik ümiddir, yaddaşına hördüyün.
Bir işıq topasıdır uzaqdan bəri gəlir!
Qəhrəman övladların qayıdır geri, gəlir!**



**Gəlir yurdun sahibi, gəlir evin yiyəsi,
Gəlir, məğrur millətin qalib əsgəri gəlir!**

***Elçin MIRZƏBƏYLİ***

Xalq qəzeti .- 2023.- 1 dekabr, № 262.- S.9.